***DİSTANT TƏHSİLİN PROBLEMLƏRİ***
***ПРОБЛЕМЫ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ***
***PROBLEMS OF DISTANCE EDUCATION***

*UOT: 37.0*

***Nübar Əhmədəli qızı İsazadə***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Turizm və Menecment Universiteti*
*Orcid kod: 0000-0002-4591-9083*
https://doi.org/10.69682/azrt.2024.91(1).56-59

# İNFORMASİYA CƏMİYYƏTİNDƏ ALİ TƏHSİLİN KEYFİYYƏT VƏ SƏMƏRƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ DİSTANT TƏHSİLİN AKTUALLIĞI

***Нюбар Ахмедали гызы Исазаде***
*докторант по программе доктора философии*
*Азербайджанский Университет Туризма и Менеджмента*

# АКТУАЛЬНОСТЬ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В ПОВЫШЕНИИ КАЧЕСТВА И ЭФФЕКТИВНОСТИ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ

***Nubar Ahmadali Isazade***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan University of Tourism and Management*

# RELEVANCE OF DISTANCE EDUCATION IN IMPROVING THE QUALITY AND EFFICIENCY OF HIGHER EDUCATION IN THE INFORMATION SOCIETY

**Xülasə.** Distant təlim, ənənəvi təhsil metodları ilə müqayisədə tələbələrin (şagirdlərin) öz müstəqilliyini, fəallığını, şüurluluğunu və yaradıcılığını artırmaq üçün effektiv bir yol təşkil edir. Bu yol informasiya cəmiyyətində, müasir müəllim hazırlığında görə istifadə olunan strateji məsələlərin səmərəli şəkildə həll edilməsinə yardım edir. Ayrıca, ali təhsilin keyfiyyət və səmərəsinin artırılmasında mühüm rol oynayır və distant təhsilin planlaşdırılması və təşkilinin aktual olmasını təmin edir. Distant təhsil, tələbələrə yaşadıqları yerdən, sağlamlıq vəziyyətlərindən, həyat səviyyəsindən və maddi təminatlarından asılı olmadan eyni təhsil imkanlarını təmin etmə baxımından da çox sərfəlidir. Məsafədən təhsil almaq, əlavə xərcləri (nəqliyyat, mənzil və s.) ödəmədən təhsil almağa imkan yaradır. Bu faktlar, tədqiqatın seçilmiş mövzusunun əhəmiyyətini və aktuallığını göstərir. Dünyaya inteqrasiya, qloballaşma və informasiyanın sürətli inkişafı, cəmiyyətin müxtəlif sahələrində əhəmiyyətli dəyişikliklərə səbəb olur və insan kapitalının dövlətin uğurlu inkişafındakı rolunu daha da artırır. Təhsil sistemində xüsusilə, ali təhsildə baş verən dəyişikliklər, cəmiyyət və dövlətin tələbatlarını qarşılaya bilən bacarıqlı və yaradıcı düşüncəyə malik mütəxəssislərin təmin edilməsinə ehtiyacı verir və bu, onların səriştəliliyi ilə birlikdə təhsilin informasiyalaşmasını da qarşınıza əsas tələb olaraq qoyur.
***Açar sözlər:*** *optimallaşdırma, distant yanaşma, istiqamətlər, strategiyalar*

**Резюме**. Дистанционное обучение – эффективный способ повышения самостоятельности, активности, осознанности и креативности студентов (учащихся) по сравнению с традиционными методами обучения. Этот путь помогает эффективно решать стратегические задачи, используемые в информационном обществе современной педагогической подготовки. Кроме того, она играет важную роль в повышении качества и эффективности высшего образования и обеспечивает актуальность планирования и организации дистанционного образования. Дистанционное образование также очень выгодно с точки зрения предоставления студентам одинаковых образовательных возможностей независимо от места их проживания, состояния здоровья, уровня жизни и финансового обеспечения. Дис-

танционное образование позволяет учиться без оплаты дополнительных расходов (транспорт, жилье и т. д.). Эти факты показывают важность и актуальность выбранной темы исследования. Интеграция в мир, глобализация и стремительное развитие информации вызывают существенные изменения в различных сферах жизни общества и еще больше повышают роль человеческого капитала в успешном развитии государства. Изменения, происходящие в системе образования, особенно в высшей школе, требуют предоставления квалифицированных и творчески мыслящих специалистов, способных удовлетворить потребности общества и государства, а это в совокупности с их компетентностью ставит информатизацию образования на первый план.

***Ключевые слова:*** *оптимизация, дистанционный подход, направления, стратегии*

**Summary**. Distance learning is an effective way to increase students' independence, activity, awareness and creativity compared to traditional education methods. This way helps to effectively solve the strategic issues used in the information society, modern teacher training. In addition, it plays an important role in increasing the quality and efficiency of higher education and ensures the relevance of distance education planning and organization. Distance education is also very beneficial in terms of providing students with the same educational opportunities regardless of their place of residence, health status, standard of living and financial security. Distance education allows you to study without paying additional costs (transportation, housing, etc.). These facts show the importance and relevance of the chosen topic of research. Integration into the world, globalization and the rapid development of information cause significant changes in various areas of society and further increase the role of human capital in the successful development of the state. The changes taking place in the education system, especially in higher education, require the provision of skilled and creative thinking specialists who can meet the needs of society and the state, and this, together with their competence, puts the informatization of education in front of you as the main requirement.

***Keywords***: *optimization, remote approach, directions, strategies*

Distant təhsil texnologiyalarının bütün sahələrdə tətbiqi, bir neçə il əvvəl ölkəmizin ümummilli lideri Heydər Əliyev tərəfindən diqqət mərkəzində olmuş və bu səbəbdən 2003-2012-ci illəri əhatə edən "Azərbaycan Respublikasının inkişafı üçün informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın qəbul edilməsinə səbəb olmuşdur (5). Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" kimi elan edilib, İnformasiya Texnologiyaları Universitetinin yaradılması isə cəmiyyətin informasiyalaşmasına və bu sahədə bacarıqlı və təcrübəli mütəxəssislərin hazırlanmasına istiqamətləndirilmiş zəruri addımların bir parçasıdır.

2007-2008-ci illərdən etibarən bir çox universitetlərdə təhsilin innovativ inkişafını və təhsilin keyfiyyətinin qiymətləndirilməsini artırmaq məqsədi ilə distant təlim texnologiyalarını tətbiq edilməyə başlanılmışdır. Bu hadisə nəticəsində, universitetlərin idarə heyəti, professorlar və müəllimlərin birgə əməkdaşlığı ilə daha mütəşəkkil bir formada test imtahanlarının keçirilməsinə səbəb olmuşdur. Bu tədbir, tələbələrə elektron resurslardan istifadə edərək biliklərini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır (7).

2009-cu ilin oktyabrında Cenevrədə keçirilən "ITU World Telecom 2009" forumunda Azərbaycanda təhsilin informasiyalaşdırılması sahəsindəki təcrübəsi paylaşılmışdır. Bu tədbirlər çərçivəsində Məlumat və Resurs mərkəzi, Azərbaycan Təhsil Şəbəkəsi (AZEDUNET), Milli Tədris Proqramı və "Elektron Məktəb", haqqında çoxsaylı ölkələrin nümayəndələrinə məlumatlar verilmiş və ölkənin informasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətlər göstərilmişdir (6).

İnformasiyanın geniş yayıldığı bir zamanda müasir cəmiyyətə keçid və yeni nəslin müasir düşüncəsinin formalaşması, distant təhsildə ciddi dəyişikliklərin tələb edilməsinə, tələbələrin distant texnologiyalarla zəngin olan təhsilə adaptasiya olmağını və distant təhsilə marağı artırmağını daha da aktuallaşdırır. Müasir günümüzdə gələcəyin kadrları, yalnız ixtisas sahələrindəki bilikləri deyil, eləcə də müasir elm və texnikanın ən son nailiyyətlərini öyrətməlidirlər. Distant təhsil vasitələrindən istifadə etməyi bacarmalılar və öyrənmə-öyrətmə proseslərini müstəqil şəkildə inkişaf etdirməlidirlər. Son illər, müasir informasiya-kommunikasiya texnologiyalarının təhsildə daha geniş şəkildə tətbiq edilməsi, tələbələr (şagirdlər) üçün bu formada

təhsilin təşkilini daha da asanlaşdırmağa və təkmilləşdirilməsinə, yüksək səviyyəyə yüksəlməsinə yardım edir (4).

İnformasiya və kompüter texnologiyaları təkcə distant təhsil sistemində deyil, ümumilikdə təhsil sistemini, onun fəaliyyətini, xarici dillərin öyrənilməsini, tələbələrin özünü müstəqil şəkildə hazırlanmasını, peşəkar biliklərin dərin öyrənilməsini və mənimsənilməsini təmin edərək tədris prosesini səmərəli şəkildə tənzimləyir. İnformasiya texnologiyalarının tətbiqi tələbələrin fəal şəkildə öyrənməyə, bilik əldə etməyə, distant təhsil və peşəkarlıq səviyyəsini artırmağa kömək edir. Təhsilin distant formada anlaşıqlı tədrisi hər bir tələbənin psixoloji və intellektual bacarıqları ilə əlaqədar informasiya axtarışı və mənbələr ilə müstəqil fəaliyyəti zamanı inkişaf etdirilir (3).

Distant təhsilin həyata keçirilməsi şəraitində distant təhsil fəaliyyətinin təşkili bacarıqlarına sahib olmaq üçün əsas meyar göstəriciləri aşağıdakı kimi sıralaya bilərik:

- Müstəqil şəkildə problem qoymaq və ya problemin formalaşdırılması: Tələbə, əldə etdiyi məlumat əsasında yeni və mürəkkəb problemlərə çözüm tapmağı bacarmalı və mövcud problemləri effektiv şəkildə həll etməlidir.
- Məlumatların təhlili, toplanması və emalı üçün metod təklif etmək: Tələbə, məlumatların effektiv şəkildə toplanması, təhlil edilməsi, istifadə edilməsi və nəhayət tətbiq etməyi üçün metodoloji bacarığını inkişaf etməlidir.
- Nəticə çıxarmaq və əldə edilmiş məlumatların praktiki tətbiqi imkanlarını görmək: Tələbə, təhlil edilmiş məlumatlar əsasında məntiqi nəticələr çıxartmağa və bu nəticələrin praktiki tətbiqini nəzərdə tutmalıdır.
- Alınan nəticələri qiymətləndirmək və düzgünlüyünü əsaslı şəkildə sübut etmək: Tələbə, öz işini nəticələndirərək, nəticələrinin təhlili və təsdiqini yekunlaşdırmalıdır.
- İnformasiya texnologiyalarının imkanlarından istifadə edə bilmək: Tələbə, informasiya texnologiyalarını distant təlim şəraitində effektiv şəkildə istifadə etməyi bacarmalıdır.

Respublikamızda tədris müəssisələrində aparılan təhsil islahatlarının əsas hədəfi, tələbələrin distant təhsil və müstəqil şəkildə distant təhsilalma fəaliyyətini təhsilin mərkəzinin bir hissəsi halına gətirməkdir. Bu cəhətdən, təhsil sistemi, müstəqil, yaradıcı düşünmə bacarığını inkişaf etmiş, universal biliyə və müasir təfəkkürə sahib, geniş dünyagörüşlü, rəqabət qabiliyyətli və təşəbbüskar kadrlar yetişdirmək məqsədini ön plana çıxarır (1). Bu çərçivədə distant təhsil texnologiyalarının tətbiqi, tələbələrdə tədris və təlimə marağı artırmağa, onları sistematik, nizamlı və məqsədyönlü bir şəkildə hazırlamağa və onlarda müstəqil fəaliyyət üçün əhəmiyyətli olan bacarıqları inkişaf etdirməyə nail olmaq məqsədini güdür.

Distant təlimin təhsil mühitinə daxil edilməsi öyrənmə prosesini dinamik şəkildə sürətləndirir. Buna görə də ölkəmizdə təhsilin distant formada qurulması müasir prioritetlərdən biridir. Bu məqsədlə inkişaf etmiş ölkələrdə təhsilə və distant təlim bacarığına malik olan peşəkar mütəxəssislərin hazırlanmasına böyük maddi resurslar ayrılır (2).

Təcrübələr distant təhsilin əsasən də təhsil sisteminin inkişafında çox önəmli bir rolu olduğunu qeyd edir. Bu, aşağıdakı məsələlərin həllində əsaslı şəkildə özünü göstərir:

- Müasir cəmiyyətdə elektron-kommunikasiya şəraitində yaşamaq və fəaliyyət göstərmək üçün tələb olunan bilik və təcrübələri toplayır.
- Yeni təlim metodları və texnologiyalarının öyrənmə prosesinə daxil edilməsi elektron formada təhsilalmanın keyfiyyətini artırır.
- Hər yaşda insanın təhsilalmasına və biliklərini artırmasına imkan verir və s.

Prezident cənab İlham Əliyev, hər zaman gənc nəslin peşəkar kadr kimi yetişdirilə biləcəyinə inanır və onun perspektivlərini qeyd edir. Ona görə də hər bir təhsil müəssisəsində maddi və texniki təminatın yüksək səviyyədə təşkili öyrənmə və öyrətmə prosesinin müasir tələblərə cavab verən səviyyədə olması zəruridir. Bu səbəbdən də yüksək səviyyədə olan nəticələri əldə etmək mümkün olacaqdır. Və dünya təcrübəsində ən nüfuzlu universitetlərin belə kifayətlənmədiklərini, hər zaman inkişaf etdiklərini nümunə göstərir. Ona görə də ali təhsil müəssisələrində mütəmadi olaraq islahatlar aparılmalıdır. Başqa sözlə desək, elmi nailiyyətləri izləmək, onları mənimsəmək və baş verən yeniliklərdə təcrübə sahibi olan ali təhsil müəssisələri ilə təmas quraraq təhsilimizin dünya səviyyəsinə yüksəlməsinə əlverişli şərait yaratmaq önəm daşıyır.

**Problemin aktuallığı.** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, distant təhsil müasir dövrün ən geniş yayılmış məsələlərindən biri kimi bir çox yeni ədəbiyyatlarda işiqlandırılmışdır.

**Problemin elmi yeniliyi.** Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Bir çox pedaqoqlar elm sahəsində çalışan elm xadimləri distant təhsil ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, – 2023. – 464 s.
2. Talıbov, Y.R. Müəllimlərin pedaqogikadan özünütəhsil proqramı. / Y.R. Talıbov. – Bakı: Maarif, – 1976. – 41 s.
3. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu // 7 oktyabr 1992-ci ildə qəbul edilmişdir (2012-ci il tarixində olan dəyişiklik və əlavələr). – Bakı: Bakı Çap Evi, – 2012. – 64 s.
4. Təhsilin informatlaşması üzrə Azərbaycanın təcrübəsi Cenevrədə keçirilən forumda təqdim olunub. // Azərbaycan müəllimi. – c. 1. – 2009, 16 oktyabr.
5. Seyidova, A. Təhsilin informasiyalaşdırılması günün tələbidir. // Azərbaycan Məktəbi. – 2016, jurnal №3. – s.62
6. Ali, M.K. Uzaktan eğitimin tarihsel gelişimi ve Türkiyedeki durumu. / M.K. Ali.- İstanbul: Marmara iletişim dergisi, – 2014. – 22 s.
7. Arat, T. Uzaktan eğitim ve uygulamaları. / T. Arat, Ö. Bakan – Konya: – c.14. – 2011. – 12 s.

**E-mail:** nubar2017@list.ru

**Rəyçilər:** *ped.elm.dok., prof.* **R.L. Hüseynzadə,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 02.02.2024